# ŞƏT ilə əməkdaşlıq ölkəmizin maraqlarına xidmət edir

***Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistanın Səmərqənd şəhərində sentyabrın 15–16-da keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə görüşünə dəvət edilməsi respublikamızın, xüsusilə dövlətimizin başçısının dünya miqyasında nüfuzunun və ölkə rəhbərinə göstərilən yüksək ehtiramın əyani təsdiqidir.***




Qeyd edək ki, ŞƏT 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Hazırda bu təşkilatın 8 üzvü (Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan), 4 müşahidəçi üzvü (Əfqanıstan, İran, Monqolustan, Belarus) və 9 dialoq tərəfdaşı (Azərbaycan, Türkiyə, Şri-Lanka, Kamboca, Nepal, Ermənistan, Misir, Qətər, Səudiyyə Ərəbistanı) var.

İranın Təşkilatın üzvlüyünə qəbul edilməsi, Misir, Qətər və Səudiyyə Ərəbistanının isə dialoq tərəfdaşı statusu almasına dair artıq siyasi qərarlar qəbul olunub.

Təşkilatın əsas məqsədləri sırasında üzv dövlətlər arasında qarşılıqlı etimad və qonşuluq münasibətlərinin gücləndirilməsi, siyasət, ticarət, iqtisadiyyat, elm və texnologiya, mədəniyyət, o cümlədən, təhsil, enerji, nəqliyyat, turizm, ətraf mühitin qorunması kimi məsələlər mühüm yer tutur. Bütün bunlarla yanaşı, qurum regionda sülh, təhlükəsizlik və sabitliyin əldə edilməsi üçün birgə səylərin göstərilməsinə, yeni siyasi və iqtisadi beynəlxalq düzənin yaradılması üçün addımların atılmasına da xüsusi diqqət göstərir.

Qeyd edək ki, ŞƏT-də dialoq tərəfdaşı statusuna sahib olan Azərbaycanla 2016-cı ildə ŞƏT-lə əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. ŞƏT ilə əməkdaşlıq istiqamətləri arasında təşkilatın ənənəvi prioritet sahələri olan və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin, həmçinin sabitliyin təminatı müəyyənləşdirilib. Eyni zamanda, ölkəmizin beynəlxalq müstəvidə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi sahələri də diqqət mərkəzində saxlanılıb.

Azərbaycanın ŞƏT sammitdə iştirakı ölkəmizin multilateralizmə verdiyi önəmin göstəricisidir. ŞƏT-in demək olar ki, bütün üzv ölkələri ilə ikitərəfli səviyyədə yüksək münasibətlər quran respublikamızın həmin dövlətlərlə əlaqələri ildən-ilə uğurla inkişaf edir. Sözügedən tədbir çərçivəsində dövlətimizin başçısının keçirdiyi görüşlər də bunun bariz ifadəsidir.

***(ardı 3-cü səhifədə)***

# ŞƏT ilə əməkdaşlıq ölkəmizin maraqlarına xidmət edir

*(əvvəli 1-ci səhifədə)*

Yeri gəlmişkən, dövlətimizin başçısı Səmərqənddə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşündə ŞƏT-in sammitində ilk dəfə iştirak üçün dəvətə görə özbəkistanlı həmkarına təşəkkürünü bildirib. Azərbaycanın ŞƏT-də dialoq tərəfdaşı statusuna sahib olduğunu vurğulayan Prezident İlham Əliyev ölkəmizin ilk dəfə məhz Özbəkistanın sədrliyi dövründə fəxri qonaq qismində belə bir nüfuzlu toplantıya dəvət olunduğunu bildirib və uğurlu sədrlik münasibəti ilə Şavkat Mirziyoyevi təbrik edib.

Dövlətimizin başçısının Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü də diqqət çəkib. Görüşdə Prezident Rəcəb Tayyib Ərdoğan Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi genişmiqyaslı təxribatların qarşısının alınması zamanı hərbi qulluqçularımızın şəhid olması ilə bağlı Prezident İlham Əliyevə, Azərbaycan xalqına və həlak olanların yaxınlarına başsağlığı verib.

Hər iki qardaş ölkə liderlərinin görüşündə Azərbaycan və Türkiyənin daim bir-birinin yanında olduqları bir daha qeyd edilib, ölkələrimizin strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, energetika, nəqliyyat, logistika və digər sahələrdə əməkdaşlığa dair birgə layihələr fonunda gələcək təmaslarla bağlı fikir mübadiləsi aparılıb.

Səmərqənddə Azərbaycan Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpin, Pakistanın Baş naziri Şahbaz Şərif və Rusiya Prezidenti Vladimir Putinlə görüşlərində bu ölkələrlə müxtəlif istiqamətlərdə əlaqələrin dərinləşdirilməsinə və daha da inkişafı üçün birgə səylərin bundan sonra da davam etdirilməsinə maraqlı olduğunu bildirilib, həmçinin sentyabrın 12-13-də Ermənistan–Azərbaycan sərhədi zonasında təxribatla bağlı ölkəmizin qəti mövqeyini, sülh siyasətinə sadiqliyini diqqətə çatdırıb.

Səmərqənddə Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin sentyabrın 16-da keçirilən sammitinin geniş tərkibdə iclasında çıxış edən Prezident İlham Əliyev həmkarlarına Azərbaycanın tranzit və nəqliyyat-logistika imkanları barədə ətraflı məlumat verib. Dövlətimizin başçısı respublikamızın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrinin işə düşməsində fəal iştirakından danışaraq, hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ildə 15 milyon ton yükaşırma qabiliyyətinə malik olmasını və bu göstəricinin il ərzində 25 milyon tona qədər artırılmasının mümkünlüyünü vurğulayıb. Azərbaycan Prezidenti, eyni zamanda, cari ilin ilk 7 ayında Azərbaycan ərazisindən keçən tranzitin 50 faizə yaxın artdığını da qeyd edib.

Azərbaycan Prezidentinin çıxışında fəaliyyətinə toxunduğu Bakı Beynəlxalq Dəniz Ticarət Limanı haqqında onu da qeyd edə bilərik ki, bu regional və beynəlxalq əhəmiyyətli nəhəng infrastrukturun inkişafı dövlətimizin başçısının daim diqqət mərkəzində olub. Cari il iyulun 15-də altı ayın yekunlarına həsr olunan müşavirədə ölkə rəhbəri sözügedən ticarət limanının ikinci fazasına başlanılmasının vacibliyini bəyan edərək, Xəzər üzərindən yükdaşımaların həcminin artırılmasının artıq reallıq olduğunu bildirib. “Mənə bu yaxınlarda verilən məlumata görə, artıq ərazimizdən keçən yükləri aşırmağa bizim imkanımız yoxdur. Çünki biz beynəlxalq ticarət limanını o vaxt olan yüklərə görə inşa etmişik, birinci fazasını başa çatdırmışıq. İndi tezliklə ikinci fazaya keçmək lazımdır” – deyən dövlətimizin başçısı həm də Azərbaycanın tranzit əhəmiyyətinin artmasını da diqqətə çatdırıb.

Bütün bunlar isə o deməkdir ki, Azərbaycan Prezidenti tərəfindən zamanında uzaqgörənliklə həyata keçirilən layihələr artıq dövrün tələbinə uyğun olaraq öz bəhrəsini verir. Dünyada baş verən geosiyasi vəziyyət ixrac və idxal ölkələrinin qarşısına ən təhlükəsiz və sərfəli nəqliyyat dəhlizindən istifadəni şərt qoyur. Ölkəmiz üzərindən daşınan yüklərin həcminin artması isə onu göstərir ki, indiki şəraitdə bu missiyanı üzərinə götürə biləcək ən uyğun ölkə məhz Azərbaycandır. Bu səbəbdən də dövlətimizin başçısı, eyni zamanda, Bakı Gəmiqayırma Zavodunun da fəaliyyətini yüksək dəyərləndirir. Həmçinin bu müəssisənin imkanlarının yenidən araşdırılması, istehsal həcminin artırılması sayəsində tranzit ölkə kimi Azərbaycanın mövqeyini daha da gücləndirəcəyini əminliklə bildirir.

Azərbaycanın ŞƏT ilə “Orta dəhliz”, “Bir kəmər bir yol” layihələri çərçivəsində geniş əməkdaşlıq və tərəfdaşlıq imkanlarına malikdir. Prezident İlham Əliyevin Səmərqənddə Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşündə də bu barədə ətraflı bəhs edilib. Dövlətimizin başçısı deyib: “Azərbaycan Çin ilə Avropa arasında nəqliyyat prosesində mühüm rol oynayır və ölkəmizin nəqliyyat-logistika imkanları beynəlxalq yük daşımalarında böyük əhəmiyyətə malikdir. Azərbaycan Çindən Avropaya və əks-istiqamətdə qatarlarla və digər yükdaşımaların artırılmasını tam şəkildə dəstəkləyir”.



Yeri gəlmişkən, tarixi İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan, həm də digər dəhlizlərlə müqayisədə yüklərin ölkəmizin ərazisindən keçməklə müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir, daha əlverişli şərtlərlə qısa müddətdə, təhlükəsiz və vaxtında çatdırılmasına, tranzit daşımaların həcminin dəfələrlə artmasına imkan yaradır.

Azərbaycan iqtisadiyyatının digər sahələrində olduğu kimi, tranzit-logistika istiqamətində fəaliyyətin səmərəli qurulması bir neçə amillə bağlıdır. Əvvəla son illərdə gerçəkləşdirilən mühüm layihələr nəticəsində respublikamızın Avrasiyaboyu strateji beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində əlverişli geoiqtisadi mövqedə yerləşməsi, eləcə də güclü tranzit potensialı Azərbaycanın transregional ticarətdə mühüm qovşağa çevrilməsini təmin edib. Ölkəmiz beynəlxalq aləmdə Şərq-Qərb, Şimal-Cənub, Cənub-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin, o cümlədən, “Viking” Qatarı layihəsinin fəal iştirakçısı kimi tanınıb.

İşğaldan azad edilən Qarabağ regionunun coğrafi mövqeyi, ərazidən Avropaya və Asiyaya çıxış imkanlarının artması isə Azərbaycanın beynəlxalq nəqliyyat-kommunikasiya və dəhliz layihələrində bundan sonra daha fəal iştirakını gücləndirəcək. Bu hal Xəzər-Qara dəniz hövzəsinin və Cənubi Qafqazın strateji və etibarlı dövləti kimi ölkəmizin iqtisadi və siyasi nüfuzunu daha da artıracaq.

Qeyd edək ki, beş ayda dəniz limanları tərəfindən 4 milyon 560,5 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilib ki, bu yüklərin də 4 milyon 293,5 min tonunu və ya 94,1 faizini tranzit yüklər təşkil edib. Ölkə rəhbəri çıxışında daha sonra Azərbaycanın 52 gəmi ilə Xəzər dənizində ən böyük mülki yük donanmasına malik olduğunu, Bakı gəmiqayırma zavodunun bütün növ gəmilər istehsal edə bildiyini də diqqətə çatdırıb.

Son 20 ildə Azərbaycanda 19 min kilometr avtomobil yolunun, 1400 kilometr dəmir yolunun tikildiyini və ya əsaslı təmir edildiyini bildirən dövlətimizin başçısı bu gün respublikamızın İkinci Qarabağ müharibəsindəki tarixi qələbədən sonra işğaldan azad edilən ərazilərdə minlərlə kilometr avtomobil yolu və yüzlərlə kilometr dəmir yolu çəkdiyini də xatırladıb.

Prezident İlham Əliyev daha sonra deyib: “Azərbaycan 18 təyyarə ilə regionumuzda ən böyük mülki hava yük donanmalarından birinə malikdir. 2024-cü ilin sonuna qədər ölkədə beynəlxalq hava limanlarının ümumi sayı bugünkü 7-dən 9-a çatdırılacaq. 2020-ci ilin sonunda Qarabağ münaqişəsinin həlli regionumuzda nəqliyyat-kommunikasiya layihələrinin inkişafı üçün yeni imkanlar yaradıb. Zəngəzur dəhlizi açıldıqdan sonra bu, region ölkələrinin nəqliyyat imkanlarını daha da artıracaq və marşrut boyu yerləşən bütün ölkələr üçün faydalı olacaqdır”.

Bu məqamda Zəngəzur dəhlizi ilə bağlı onu deyə bilərik ki, Azərbaycanın Vətən müharibəsindəki qələbəsi nəqliyyat-logistika sahəsində də yeni reallıqlar yaratdı. Təbii ki, söhbət Zəngəzur dəhlizindən gedir. Bu dəhliz vasitəsilə Azərbaycandan Türkiyəyə daşınan yükləri qısa müddətdə Avropa və Yaxın Şərq ölkələrinə çatdırmaq imkanı yaranacaq. Zəngəzur dəhlizi Azərbaycanın tranzit imkanlarını daha da genişləndirəcək.

Zəngəzur dəhlizinin açılmasına Ermənistan mane olmaq istəsə də, dünyada söz sahibi olan ölkələr buna böyük maraq göstərir. Çin, Rusiya və Türkiyə bu dəhlizin açılmasında israrlıdır. Üstəlik, Avropa ölkələri də bu dəhlizin açılmasını dəstəkləyir.

Dövlətimizin başçısı çıxışında Vətən müharibəsindən sonra regionda yaranan postmünaqişə reallıqlarına da toxunub. Bildirib ki, Azərbaycan Ermənistana ölkələrin bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınmasına əsaslanan sülh müqaviləsi üçün beş əsas prinsip təqdim edib. “İndi biz ilkin şərtlər və süni ləngimələr olmadan sülh sazişi layihəsi üzərində işə başlamalıyıq. Lakin təəssüf ki, bu il sentyabrın 13-də Ermənistan Azərbaycanla dövlət sərhədində genişmiqyaslı hərbi təxribat törətmişdir. Azərbaycan silahlı qüvvələri bu təxribatın qarşısını qətiyyətlə almışdır. Ermənistanın bu təxribatı iki ölkə arasında normallaşdırma prosesinə böyük bir zərbədir. Buna görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür”, – deyə ölkə rəhbəri bildirib.

Prezident İlham Əliyev çıxışında Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 il ərzində işğal altında saxlanılması ilə bağlı məqamlara da toxunub. Bu məsələdə bəzi aparıcı beynəlxalq təşkilatların səmərəsiz fəaliyyətini qeyd edən ölkə rəhbəri bunun ciddi narahatlıq doğurduğunu vurğulayaraq, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunan ərazilərindən çıxarılmasını tələb edən dörd qətnaməsini xatırladıb. “Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün ərzində yerinə yetirildiyi halda, bizim vəziyyətimizlə bağlı qəbul olunan qətnamələr 27 il ərzində icra olunmamış qaldı. Azərbaycan Qarabağ münaqişəsini özü hərbi-siyasi yolla həll edib və Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinin icrasını təmin edib”, – deyə dövlətimizin rəhbəri bildirib.

Azərbaycan Prezidenti çıxışında 2019-cu ildən Azərbaycanın 120 ölkəni birləşdirən, BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına sədrlik etdiyini, sədrlik vaxtının yekdilliklə daha bir il – 2023-cü ilə qədər uzadıldığını, bunun isə ölkəmizə olan hörmət və inamın göstəricisi kimi diqqət çəkdiyini söyləyib. Bu etimadı isə Azərbaycanın öz fəaliyyətini beynəlxalq hüquq, ədalət və qlobal təhlükəsizlik prinsipləri əsasında qurması ilə əlaqələndirib.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.-18 sentyabr.- S.1; 3.